*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 300-305*

https://doi.org/10.62837/2024.10.300

**BAHAR ƏLİYEVA**
**ADPU-nun nəzdində Azərbaycan**
**Dövlət Pedaqoji Kolleci**
**(İnşaatçılar prospekti 45)**
**baharaliyeva2017@gmail.com**

# MƏMMƏD ASLANIN UŞAQ ƏSƏRLƏRİNİN İDEYA-BƏDİİ XÜSUSİYYƏTLƏRİ

**Açar sözlər**: ədəbiyyat, mövzu, əsər, tərbiyə, ideya, yaradıcılıq, inkişaf, yenilik, mütaliə

Məlumdur ki, uşaq ədəbiyyatının hər tarixi mərhələdə inkişaf meyllərini hərtərəfli tədqiq etməklə söz sənətinin müstəqil sahəsi kimi bu ədəbiyyatın xüsusiyyət-lərini, görkəmli sənətkarların ədəbiyyatın inkişafında rolunu müəyyənləşdirmək, müasir mərhələdə uşaq ədəbiyyatının tədqiqi üçün möhkəm zəmin yaratmaq olar. Uşaq ədəbiyyatımızın inkişafında mühüm rolu olan sənətkarların yaradıcılığının tədqiqinin elmi-nəzəri əhəmiyyəti məhz bununla şərtlənir.

Görkəmli sənətkarların yaradıcılığının tədqiqi həmin dövrdə bədii əsərlərin qiymətləndirilməsi meyarlarını müəyyənləşdirməyə, ideya-estetik və mənəvi tərbiyə baxımından ən dəyərli nümunələri üzə çıxarmağa kömək edəcəkdir. Yüksək bədii sənətkarlıq nümunəsi olan, böyük tərbiyəvi əhəmiyyət kəsb edən, yaşadığımız dövrlə səsləşən əsərlər gənc nəslin mütaliə dairəsinə daxil olmalı, bədii irsdən müasir vəzifələrin yerinə yetirilməsində məqsədyönlü şəkildə istifadə olunmalıdır.

Məmməd Aslanın yaradıcılığının mühüm tərkib hissəsini uşaq əsərləri təşkil edir. Şair öz əsərlərində bədii lövhələrlə uşaqların əmək tərbiyəsi, elmə, biliyə yiyələnmək, fərasətli, gözüaçıq olmaq, davranış mədəniyyəti, ailədə, cəmiyyətdə başqaları ilə rəftar qaydaları, böyüyə, kiçiyə münasibət, düzlük, sadəlik, təvazökarlıq, halallığa tapınmaq, kindən, riyakarlıqdan uzaq olmaq, insanpərvərlik, xeyirxahlıq haqqında çox dəyərli fikirlər söyləmişdir.

Sənətkarın əsərlərində öz əksini tapan həyat həqiqətləri, ibrətamiz fikirlər oxucunun hisslərinə təsir edir, onu düşünməyə sövq edir. Bu əsərlərin məzmun dolğunluğu, bədii ifadə sənətkarlığı oxucunun oradakı fikirlərdən məqsədyönlü şəkildə bəhrələnməsinə imkan verir.

Şairin əsərləri oxucunu həyatda xeyir və şəri görməyə, əməyə, əməkçi insana, böyüklərə münasibətdə düzgün mövqe tutmağa imkan verir. Eyni zamanda uşaqlarda düzgün şifahi nitqin inkişafında şairin əsərləri mühüm mənbədir. Bədii mətnlər oxucunun lüğət ehtiyatını genişləndirir, dialoqun düzgün qurulmasına kömək edir, ardıcıl, məntiqli nitqin inkişafına təsir göstərir. Ədib öz əsərlərində uşağın mənəvi

dəyərlərə yiyələnməsi, dünyanı həssaslıqla qavraması imkanlarını diqqət mərkəzində saxlamışdır.

Məmməd Aslanın uşaq şeirləri mövzu baxımından rəngarəngliyi, dili, üslub orijinallığı ilə seçilir. Onun uşaq həyatından, böyüklərin uşaqlara münasibətindən, təbiətdən bəhs edən əsərləri üçün bədii dilin oynaqlığı, yığcamlıq, yaddaqalan lövhələr yaradılması səciyyəvidir. “Nənəm xalça toxuyur” şeirində uşağın öz nənəsinə məhəbbəti, xalça toxumasına münasibəti bədii lövhələrlə əks etdirilir :

Bu, hana ağacıdı,
Bu, əriş-arğacıdı.
O gördüyün kirkitdi,
İlmələri bərkitdi.
O da gonbul həvədi,
Dişi sanki dəvədi.
Necə də hazır durub,
Gurup-gurup, gur-gurup…
İlmə çalır barmaqlar,
Çözələnir yumaqlar.
Bax, toxunan xalçadı,
Gülü qonça-qonçadı.
Əlvan ipdən gör nələr,
Toxuyurlar nənələr.

Beləliklə, şair dilin bədii vasitələrindən məhaqətlə istifadə edərək qədim xalq sənətinin incəliklərini – nənələr, analar tərəfindən xalçanın toxunması prosesini kiçikyaşlı oxucunun gözü önündə canlandırır. Əsərin bir məziyyəti də sənətkarın “hana”, “əriş-arğac”, “kirkit”, “ilmə”, “yumaq”, “həvə” sözlərini uşağın nitqinə, leksikonuna daxil etməsidir. Əsərdə uşağın nənəyə məhəbbətini, onun əməksevərliyinə münasibətini bədii dillə ifadə etməyə nail olmuşdur.

Bu baxımdan ədibin “İpək paltar” şeiri də öz ideya-məzmunu, bədii məziyyətləri ilə diqqəti cəlb edir. Əsər nəvə ilə babanın dialoqu şəklində yazılmışdır. Uşaq babasına müraciət edərək babasından bel sapı kəsməsini xahiş edir. İlk baxışda adi görünən bu sual vasitəsilə şair uşağın babasına, əməyə münasibətini bədii bir dillə oxucuya çatdırmağa nail olmuşdur :

- Bel sapı kəs , ay baba!
- Bel nəyinə gərəkdi ?
- Bağda quyu qazıram,
  Bəlkə bir çəkil əkdim.

- Neyləyirsən çəkili ?
- Qoy çəkil budaqlasın !
- Neyləyirsən budağı ?

- Qoy budaq yarpaqlasın !
- Neyləyirsən yarpağı ?
- İpəkqurdu saxlaram,

Yemlərəm, yarpaqlaram.
Yaxşı bəsləsəm, əgər,
Qurd mənə ipək verər-
Geyərəm ipək paltar,
Gün dəydikcə parıldar.

Göründüyü kimi şeirdə şair dilin bədiilik, ifadəlilik imkanlarından sənətkarlıqla istifadə edərək baba ilə nəvənin dialoquna idraki motivlər daxil etmiş, kiçikyaşlı oxucunun dünyagörüşünü, bədii duyumunu inkişaf etdirən bir səhnə yaratmışdır.

Ədibin “Alma ağacı” şeiri uşaqların çox sevdiyi, həvəslə əzbərlədiyi, ifa etdiyi əsərlərdəndir. Dil, üslub axıcılığı ilə seçilən bu əsər ədibin uşaq dünyasına, onun həyata, təbiətə baxışına dərindən bələdliyini dolğun şəkildə əks etdirir. İlk baxışda uşaq təbiətinə, davranışına xas olan yumorlu sonluqla bitən şeir həm də estetik, tərbiyəvi məzmunludur:

Bir ağac çiçəklədi,
Babam dedi:
- Almadı.
Üzə güldü budaqlar,
Vaxtsız çiçək salmadı.
Əzizlədik,
Gözlədik,
Heç kəs onu yolmadı.
Yetişdi meyvələri,
Payladı bir-bir bizə.
Bıy, özünə qalmadı!

Həcmcə kiçik olan “Böyürtikan - böyrü tikan” şeirində də həyata, təbiətə uşaq baxışının bədii ifadəsi öz əksini tapmışdır:

- Böyürtkən -böyürtikəndi,
  Niyə böyrü tikandı?
- Tikansız olsa əgər,
  Quşlar qonub dənləyər.
  Nübar qalmaz bir dənə
  Nə babaya, nə sənə.

Məmməd Aslanın əsərlərində təsvir edilən təbiət lövhələri, ibrətamiz fikirlər oxucunun hisslərinə təsir edir, onu düşünməyə sövq edir. Bu əsərlərin ideya- məzmun dolğunluğu, bədii ifadə sənətkarlığı oxucunun oradakı fikirlərdən məqsədyönlü şəkildə bəhrələnməsinə imkan verir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh.300-305*

Ədibin "Təbrizə" şeirində Təbrizə adlı qızçığazın bədii obrazı yaradılmışdır. Fikrimizcə, şair əsərin qəhrəmanının adını təsadüfi seçməmişdir. Vətənpərvər sənətkar bu adla öz oxucularına doğma Təbrizimizi bir daha xatırlatmış, onlara vətənpərvərlik hissi aşılamaq niyyətini də izləmişdir:

Bapbalaca boyu var,
Xırdacadır Təbrizə,
Amma hayana getsək,
Gəlib qoşulur bizə.

Qaçır hamıdan qabaq,
Hörüyü qoşa zanbaq.
Əlindəki gülə bax,
Telindəki nərgizə.

Görməzsən bir yol dinə,
Buyursa yüz yol nənə;
Gah gül üçün çəmənə,
Gah su üçün kəhrizə.

Nənəsi hana qurar,
Hanaya ilmə vurar.
Təbrizə tez oturar
Nənəsiylə diz-dizə.

Gülər dodaq, gülər göz,
Gülərüzdü, gülərüz.
Əli-üzü tərtəmiz,
Üstü-başı təptəzə.

Şeirdə şair dilimizin söz xəzinəsindən sənətkarlıqla bəhrənərək balaca Təbrizənin bədii portretini çəkmiş, qəhrəmanının davranışı, nənəsinə münasibəti, əməksevərliyini göz önündə canlandırmağa müvəffəq olmuşdur.

Məmməd Aslan uşaq əsərlərində mövzu əlvanlığına, bədii sənətkarlıq məsələlərinə xüsusi diqqət yetirmişdir. Onun şeirlərində uşaq həyaından aydın, yığcam lövhələr, zəngin xalq hikməti, müdrikliyi öz əksini tapmışdır. Ədibin uşaq ruhuna yaxın oynaq vəznlərdə yazdığı əsərlər bu gün də öz ideya- bədii dəyərini saxlamaqdadır.

## ƏDƏBİYYAT

1.Azərbaycan uşaq ədəbiyyatı antologiyası. 3 cilddə. II cild..XX əsr uşaq şeiri. Bakı: Öndər nəşriyyat, 2004.320 s.

2.Aslan Məmməd. Seçilmiş əsərləri. Bakı: Avrasiya Press. 2006. 320 s.

3.Həsənli B. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Müəllim, 2015.522 s.

4.Əhməd V. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Müəllim,2006. 338 s..

**5.**Yusifoğlu R. Uşaq ədəbiyyatı. Bakı:Şirvannəşr, 2006, 268 s.

**БАХАР АЛИЕВА**

## Идейно-художественные особенности детских произведений Мамеда Аслана

## РЕЗЮМЕ

В творческом наследии поета Мамеда Аслана важное место занимают образцы словесного искусства, включенные в детские чтения. Особенность произведений, адресованных детям, он видел в их обращении к молодому поколению, в том, что юному читателю все понятно, в умении постепенно раскрывать суть окружающей их жизни. В этом смысле Мамед Аслан – мощный художник, привносящий новаторство в нашу детскую литературу.

Детские произведения поета открывают широкие возможности в плане духовно-эстетического воспитания подрастающего поколения, формирования их как людей думающих, творческих, чутких. Произведения автора колоритны по тематике и идеям. В этих произведениях затрагивались важные духовные проблемы, отражались различные сферы жизни, события, происходящие в обществе, человеческие отношения.

В детских произведениях писателя учитывались возраст и уровень знаний читателей школьного возраста, предполагались педагогические требования. В своих произведениях Мамед Аслан выразил прогрессивные идеи о духовном воспитании так, чтобы их было понятно ребенку.

**Ключевые слова:** литература, тема, произведение, воспитание, идея, творчество, развитие, новаторство, чтение

**BAHAR ALIYEVA**

## Ideological and artistic features of children's works by Mamed Aslan

## SUMMARY

In the creative heritage of Mamed Aslan, an important place is occupied by examples of verbal art included in children's readings. He saw the peculiarity of works addressed to children in their appeal to the younger generation, in the fact that everything is clear to the young reader, in the ability to gradually reveal the essence

of the life around them. In this sense, Mamed Aslan is a powerful artist who brings innovation to our children's literature.

The writer's children's works open up broad opportunities in terms of spiritual and aesthetic education of the younger generation, their formation as thinking, creative, sensitive people. The writer's children's works are colorful in theme and ideas. These works touched upon important spiritual problems, reflected various spheres of life, events occurring in society, human relationships.

The writer's children's works took into account the age and level of knowledge of school-age readers, and implied pedagogical requirements. In his works, Mamed Aslan expressed his advanced ideas and progressive ideas about spiritual education in a way that was understandable to a child.

**Keywords:** literature, theme, work, education, idea, creativity, development, innovation, reading

**Redaksiyaya daxil olma tarixi: 11.10.2024**
**Çapa qəbul olunma tarixi: 24.10.2024**
**Rəyçi: B.Həsənli**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent**
**tərəfindən çapa tövsiyə olunmuşdur**